# Sara Oğuz nəsrində qadın dünyası



■ Ayşən Qəhrəmanova

Sara Oğuz nəsrinin obrazları olan qadınlar da yaşadıqları həyat şəraitləri-lə, dövrün, zamanın çətinliklərilə mübarizədə ürəkdən gülməyi unutmuş qadın obrazlarıdır. Qadınlar, onların xarakterləri, görünüşləri, düşdükləri vəziyyətlərdə, situasiyalarda davranışları, yaşadıqları həyat şəraitindəki, öz zamanındakı çətinliklərilə mübarizələri Sara Oğuz nəsrində ifadə olunmuşdur. Təhlil ediləcək ilk əsər olan "Tale damğası" əsərində olan qadın obrazları da yaşadıqları dövrdə, milli inanclar zəminində, öz milli xarakterlərilə seçilən qadın obrazlarıdır. Əsərdə bir kənd yaşayışı və psixologiyası ifadə olunmuşdur. Əsər Şamxatunun bacısı qızının dilindən nəql olunur və Şamxatun-xala obrazının həyatı danışılır. Süjet boyunca Şamxatunun həyatı təsvir olunduqca onunla əlaqəli şəkildə digər qadın obrazlarının xarakteri açılır və kənd mühitinin, kənd yaşayışının, ordakı inancların təsviri verilir. Şamxatun həyata küskün, yaşadığı həyatla barışa bilməyən, hər zaman öz taleyinə və qadın olmasına qarğış edən bir qadındır. Ailənin son beşiyi olan Şamxatun çətin bir dövrdə uşaqlıq keçirmiş, atasız, qardaşsız qalmışdır. Atası və qardaşını sürgün etmişdilər. Atasını erkən itirən Şamxatun da hər zaman ata həsrətilə yaşayırdı.

"...Xalam başını tərpətdi. - Yoox, - dedi. - Atalarını tanımırlar.

- Xala, bəs bunların ataları harda olur? Onlar niyə bir tövlədə yaşamırlar?

Xalam burnunu çəkə-çəkə söyləndi: - Atalarını, bala, adamlar kəsir, şuma sürür, arabaya qoşur. İnsanlar heyvanlardan qurtaranda özləri öz canlarına düşürlər. Asılıb-kəsiləni, fitnəyə qoşulanı, bir-biriylə dolanmayanı - ara yerdə balaları başsız qalır".

Şamxatun bu cümlələrində bir tərəfdən atasızlığını ifadə edirsə, digər tərəfdən zamanın və dövrün mənzərəsini də dilə gətirir. Kişilərin sürgün edilməsi nəticəsində ailələr başsız və köməksiz qalır, qadınlar uşaqlarını tək böyütmək məcburiyyətində qalır, bir sözlə bu amansız həyata qarşı tək mübarizə aparmalı olurlar. Bu sürgünlərin nəticəsində ara yerdə başsız qalan balalardan biri də Şamxatun idi. Şamxatunu atasızlıq çox incidirdi. "Şeytanaldadan" ağac adlandırılan zoğal ağacından, onun əhvalatından, həsrətdən danışanda da öz həsrətini ifadə edirdi. Ata sevgisindən məhrum olan Şamxatunun əri Şamxal da ona lazımi sevgi və qayğı göstərmirdi. Zamanında Şamxatunla evlənmək üçün min cür fənd quran Şamxalın günü içki içmək və qumar oynamaqla keçirdi. Əri Şamxaldan lazımi sevgi və qayğı görməyən Şamxatunu oğlu Şamxal da yetərincə dinləmirdi. Bacısı isə hər zaman onu danlayırdı ki, haqqını tələb etsin. Amma Şamxatun həyatına qarşı çarəsiz idi. Hər zaman taleyinə qarğış etsə də, üsyankar olsa belə artıq yaşadığı həyatı dəyişdirmək üçün mübarizə aparmırdı. Beləcə sevgisizlik içində yaşayan Şamxatun çarəsizliyə düşmüşdü. Yaşadığı həyat və olduğu mühit onu hər gün daha da sındırırdı. Gəncliyində güclü, şən qız olan Şamxatun zaman keçdikcə içdən-içə məhv olurdu. Bunu Şamxatunun bacısının onun gəncliyi haqqında dediyi sözlərlə

Bunları anama deyəndə, o, içini çəkib, - Hiyy, xalaan?... - deyirdi. - O, qız vaxtı bir qoçaq idi. Buz baltası kimi canı vardı. Səksən kiloluq yağları ikimiz qucaqlayıb arabaya atırdıq...

Sonra da anasının və bacısının danlaqlarındakı

Özün bədniyyətsən. Gül kimi bəxtini deyə-deyə kor eləyirsən. Nə gözünü açıb bir işıqlı dünyaya baxırsan, nə də olanına Allaha şükür eləyirsən.

Bir ana kimi övladlarını böyük məhəbbətlə sevən, onları əzizləyən, qızlarına xüsusi diqqət yetirən, ürəyində böyük sevgi daşıyan Şamxatun qadın olaraq xoşbəxt deyildi. Qadın xoşbəxtliyindən məhrum idi. Hər zaman bəxtinə qarğış edirdi.

"Tavasarı ocaqdan götürüb yerə qoyanda əli yandımı, üzünü göyə tutub - Allah, gözümü tökəydin məni bu xarabaya qismət elədiyin yerdə! - deyə əlini silkələyirdi. Xalam uçan quşla uçmaq, gələn qonaqla getmək istəyərdi. Bizlərdən birimiz onlara qonaq gedib qayıdanda yolacan ötürər, evə dönmək istəmirdi.

Şamxatun o qədər bədbəxt idi ki, uçan quşla uçmaq, gedən qonaqla getmək istəyərdi. Bir qadın üçün ən qiymətlisi olan ocağına, ailəsinə qayıtmaq istəmirdi. Əslində, Şamxatunun çarəsizliyində taleyinə, həyatına qarğış etmək, olmayacaq arzuları (uçan quşla uçmaq) dilə gətirmək bəlkə də bir təsəlli və təskinlik idi. Çünki yaşadığı mühitdə bundan başqa yolu yox idi. Amma taleyinə qarğış edəndə, evinə, ailəsinə dönmək istəməyəndə anası ona qarşı çıxırdı.

Nənəmlə hey xısınlaşardı. O danışıb köksünü ötürdükcə nənəm od tutub alışardı. - Aaz, ağlını başına yığ, qız uşağı, bala, ərə getdi, gora getdi. Gor evindən, ər evindən döndü yoxdu. Şəkil kimi balaların var. Üzlərinə bax ürəyinə su ver...

Bu misralar da Şamxatunun necə çarəsiz olduğunu göstərir. Bir qadın olaraq həyatını seçmək şansı yoxdu. Evləndisə boşana, ayrıla bilməz. Bədbəxt olsa belə xoşbəxt olmağın yolunu tapmalı idi. Şamxatunun anası da onu hey tənbeh edirdi. O da vurğulayır ki, kimdi xoşbəxt olan? Kimdi taleyinə dua edən? Deməli, bu çətin zaman və mühitdə bir çox qadınlar Şamxatun kimi bədbəxtdir. Elə ananın özü də həyatda çətinliklər görmüş qadındır. Bir ana üçün ən doğması olan övladını itirib, həyat yoldaşını sürgün ediblər və övladlarını tək böyütməyə məcbur olub. Övladları üçün həm ata, həm də ana olmağa çalışıb, həm kişi işini görüb, həm də qadın işini yerinə yetirib. Amma Şamxatunun üsyankar xarakterindən fərqli olaraq o, öz həyatı ilə barışıqdı. Çünki bu çətin zaman və mühitdə digər övladlarını böyütməli və qayğısına qalmalı idi. Əslində o da çarəsiz olub və qızının bədbəxtliyini görüb ona xoşbəxt olmağın bir yolunu tapmasını məsləhət görür. Taleyinə, həyatına bu qədər qarğış etməsi onu əsəbiləşdirirdi. Əslində isə bu danlaqlarda və məsləhətlərdə qızının bədbəxtliyinə ürəyi yanan ananın sözləri var. Çünki ana qızının bədbəxt və məyus olmasını qəbul edə bilmir, eyni zamanda el psixologiyasına da bələd olan ana qızının ayrılmasını qəbul etmir və övladları üçün xoşbəxt olmasını, onlar üçün yaşamasını istəyir. Samxatunun bacısı qızının nənəsinə deməsi ki

Mənim başım çıxmır eyy, adamın ömrü-günü atasından, qardaşından niyə asılı olur? Adam öz həyatını necə istəyir elə qurmur?.

Bu suala nənənin verdiyi cavab da "Eyy a bala, ağ gün hara gedirsən ağarmağa, qara gün hara gedirsən qaralmağa deyib saat kəfkiri kimi yırğalanırdı...".

Onun qızının taleyinə necə üzüldüyünü, elə onun özünün də taleyinin çətin olduğuna, qızının bədbəxtliyini görüb anladığına işarə edir. Qızının bədbəxtliyini görsə də el psixologiyası daha ağır gəlir. Şamxatun atası evinə qaçanda da

"Yediyini irin-qan eləyib burnundan tökəcəyəm. Qız nədir, ata evinə qayıtdı nədir? Nəslimizdə görünməyən işdir!"

Ana nəsil və el adətlərinə bağlı idi və atasız, başsız böyütdüyü qızlarının ayrılması nəslinə xələl gətirə bilərdi. Nəsil və el adətləri beləcə Şamxatunu çarəsiz etmişdi. Əvvəllər atası evinə qaçsa da, ayrılmaq, boşanmaq istəsə də sonradan bu mübarizədən əl çəkmişdi. Üsyankarlığı sadəcə qarğış etməklə kifayətlənirdi. Bir qadın olaraq artıq o həddə çatmışdı ki, qadında adamdı? sualını verirdi. Şamxatun həm cəsur, həm də qorxaq və həssas bir qadın idi. Kənd mühitində bir qadın olmağın, tərbiyəli qız böyütməyin, onun adını qorumağın necə çətin bir məsələ olduğunu anladığına görə qızlarına xüsusi həssaslıqla yanaşırdı və onları tezliklə yerbəyer etmək, evləndirmək istəyirdi. Şamxatunun da qorxusu qızlarının tərbiyəli adı idi. Qızlarını və bacısı qızını hər addımda izləyir, onları tək harasa getməyə qoymurdu ki, adlarına söz gələr. Bacısı qızı ağacdan yıxılanda da, sonra evlərinə qayıtmaq istəyəndə də çox narahat olmuşdu və onu tək getməyə qoymamışdı. Qız isə hələ gənc və çılğın uşaq düşüncəsilə həyatını insan özü qurmalıdır, qadın harasa tək getsə nə olar? deyə fikirləşirdi. Çünki hələ uşaq olduğundan el adətlərindən, milli psixologiyadan xəbərdar olsa da bunların doğru dərk etmirdi. Yolu tək gedəndən sonra fikrini dəyişərək deməşdi.

Xalam deməsin it araba kölgəsində yatır, elə bilir öz kölgəsidi. Yol gedəndə oynaqlamağım, ot-ağaca yoldaş olmağım onların ərkinəymiş.

Şamxatun qızlarına qarşı həssas, hər addımdan qorxan biri olsa da eyni zamanda cəsur idi və ürəyində böyük məhəbbət və mərhəmət daşıyırdı. Bütün yaşadıqlarından sonra Şamxatun həyatdan küskün köçür. Həyat yoldaşı ona sədaqət göstərmir və qara bayramı təzəcə çıxmamış evlənir. Bacısı qızı Şamxatunun qəbrini ziyarətə gələndə ordakı uşaq soruşur. Bəs hanı Sütcəmənin ölümü? Əslində isə Şamxatun sağ ikən daxilən ölmüşdü, sonda isə cismi getdi. Ümumən biz əsərdə müharibə dövrünün çətinliklərini, başsız qalan ailələrdə qadınların və qızların mübarizələrilə, onların təkbaşına necə həm ana, həm də ata olduqlarının, çətin yaşayışla birlikdə milli psixologiyanın, kənd həyatının mənzərələri və milli xarakterlərlə tanış oluruq.

90-cı illər keçid dövrünün çətinliklərinin əks olunduğu Sara Oğuz nəsrinin daha bir nümunəsi "Kəpənək ömrü" əsəridir. Bu əsərin də qadın obrazları çətin şəraitdə yaşayan, mübariz eyni zamanda qadın əxlaqına sahib obrazlardır. Keçid dövrünün çətinlikləri isə üç ziyalı xanımın həyatı fonunda təqdim olunur. Bu qadınların yad insanların yanında işləmələri, özlərini müdafiə üsulları, bir-birilərinə dəstək olmaları, ailələrinə kömək etmək istəkləri və ümumən əsər boyu davranışları əsl ziyalı və eyni zamanda fərqli qadın xarakterləri yaratmışdır. Çətin şəraitdə, müharibə vəziyyətində yaşayan bu ziyalı qadınlar yad məkanda və yad insanların yanında işləməyə məcbur olurlar. Əsər laboratoriya işçisinin dilindən nəql olunur və süjet boyunca hər qadının fərqli xarakterləri, həyat şəraitləri, vəziyyətləri göstərilir. Çətin bir dövrdə yaşayan və mübarizə aparan qadınlar ehtiyaclarına görə ot, bitki yığmağa gəldikləri məkanda olan bostanda yenə ehtiyaclarına görə işləməyə məcbur olurlar. Bu bitki və otları həm yemək və həm də müalicə məqsədilə istifadə edəcəkdilər. Əsərdə də qeyd olunduğu kimi itirilən torpaqlarda olan müalicə məntəqələrinə getmək mümkün deyildi, digər ərazilərdəkilər isə qaçqınlarla dolu idi.

Sən, deyir, hesabdarımızın sözünə bax. O gəlirimizi-çıxarımızı yaxşı bilir. İstisu təpik altda, işğal olunmuş ərazidə. Heç olmasa, iki-üç ildən bir gedib böyrəyini-ödünü yuyurdun. İndi hara gedəcəksən?...

Bu ifadələrdə də torpaqları işğal olunmuş bir dövlətdə keçid dövrünün çətinlikləri əks olunmuşdur. Normal həyat şəraiti pozulub. Və məhz belə bir şərait bu üç ziyalı xanımı yad məkanda,





yad kişilərin yanında işləməyə məcbur edir. Amma bir qadın olaraq bundan çəkinirlər. Kişilərin də onlara yemək və içmək təklifi onları daha da narahat edir. Qadınlar müdafiə olunmaq üçün hiylə işlədirlər və özlərini bu yolla rahatlatmağa çalışırlar.

"- Əhəd niyə gəlib çıxmadı? - deyə soruşdum... Ərini deyirəm, demədi on ikiyə burdadı?".

Hesabdarın ərin gəldiyini deməklə onlar başsız və köməksiz olmadıqlarını göstərməyə çalışırdılar. Halbuki hesabdarın əri şikəst idi və oraya gələ bilməzdi, bəlkə də bilsə idi işləməyinə belə icazə verməzdi. Hesabdar da elə ürəyi xəstə olsa da həyat yoldaşına görə qızmar günəşin altında işləyirdi. Övladı olmayan, həyat yoldaşına övladı kimi baxan, uşaq kimi ona diqqət edən hesabdar onunla mehriban dolanırdı. Onun özü də saf və təmiz xarakterə, uşaq xislətinə sahib bir qadın idi. Qarşısındakı insana uşaq saflığı ilə inanır, soruşulan suallara olduğu kimi cavab verirdi. Laboratoriya işçisi onun haqqına deyirdi.

"...Bizimdə zalım, elə bil məhkəmə-müstəntiq qabağındadı. Hər şeyi gərək olduğu kimi deyə. Buna biz bu neçə ildə bir biclik, hiylə öyrədəmmədik də..."

Hesabdar biclik, hiylə bilməyən bir xarakterə sahib olsa da eyni zamanda xarici görkəminin arıq, cılız və xəstə olmasına baxmayaraq çətin şəraitdə işləyəcək qədər güclü və mətanətlidir. Bir tərəfdən də bu qədər əziyyətlə işləməyin səbəbi də ona veriləcək pula layiq olmaq, işlədiyi sahəni düzgün vəziyyətə gətirmək, ən əsası isə həyat yoldaşına, ailəsinə kömək etməkdi. Elə onunla gələn laboratoriya işçisi də ailəsinə faydası olsun deyə işləyirdi. Amma hesabdardan fərqli olaraq o tədbirli idi. Əgər hesabdar uşaq kimi ona verilən suallara olduğu kimi cavab verirdisə, laboratoriya işçisi isə özünümüdafiə yollarını, onun dili ilə desək hiylələri bilirdi.

*Davamı səhifə 22-də*

# Sara Oğuz nəsrində qadın dünyası

(Əvvəli səhifə 21-də)

Yuxarıda qeyd olunan Əhədin gəlməsi fikri də ona aid idi. Heç vaxt evlənməyən müdirlərini də evli, arxalı-dayaqlı təqdim etmişdi ki, onları başsız və köməksiz hesab etməsinlər. Laboratoriya işçisi həyat yoldaşına xəbər verməkdən gəldiyinə görə həm narahatçılıq keçirirdi, eyni zamanda dolanmağın çətinliyini və buna məcbur olduğunu da anlayırdı.

...Doğrudan a, çörəkdən ötrü durub çölün düzünə yollanmağımı biləndə, görəsən, mənim haqqımda nə fikirləşəcək? Ona qalsa, ağac kimi ayaq üstə quruyar... A tövbə, birdəfəlik gözündən düşəcəm. Deməmiş, soruşmamış, dur duş yola ki, iş bilmişəm. İndi oğulsan başa sal, birdən olan əhvalatdır. Səni tapınca, bildirincə iş əlimizdən çıxardı. Demiş olsam da guya qoyasıydı?... Çünki o hesab edirdi ki, kişi gərək qadının təəssübünü çəksin".

Məhz bu daxili monoloq belə dövrün çətinliyini, kişi-qadın münasibətlərini əks etdirir. Kişi gərək qadının qeydinə qala fikri qadınların çox da azad olmamalarını göstərir. Amma digər nəsr əsərlərinin obrazları olan qadınlardan fərqli olaraq həm laboratoriya işçisi, həm də hesabdar həyat yoldaşı sevgisindən məhrum deyildilər. Hətta həyat yoldaşları onların qeydinə özləri qalmaq istəyir. Hesabdar həyat yoldaşının qeydinə uşaq kimi qalırdı, laboratoriya işçisi isə həyat yoldaşının fikirlərini, düşüncələrini əhəmiyyətli hesab edirdi və onun incimәsindən narahat olurdu amma zaman və dövrün çətinliyi onları bu ağır işdə işləməyə məcbur edirdi. Laboratoriya işçisi nə qədər özünümüdafiə etməyə çalışsa da, həyatı ilə bağlı yalanlar deyib özünü güclü, arxalı göstərsə də eyni zamanda mərhəmətli ürəyə sahib bir qadın idi. Müdirlərinin çöldə satdığı gülləri onun aldığını bildirmədən satın almışdı. Dost və bir qadın mərhəmətilə müdirinə yanaşmışdır və onsuz da sınan qürurunu daha da sındırmamaq üçün onun aldığını bildirməmişdi. Laboratoriya müdiri isə heç vaxt evlənməmişdi. Ağır görkəmli, müdir xarakterinə sahib olan bu qadının tək sərvəti işi idi. Bu dəhşətli bir dövrdə isə istədiyi kimi işilə məşğul ola bilmirdi. Ona görə də tək sevgisi, bağlılığı olan işilə düzgün məşğul olmaq istəyirdi.

Laboratoriya müdirimiz gunahkarcasına - bilirsiniz ki, mənim işimdən başqa heç vaxt heç nəyim olmayıb Məsələ həyatın çətinliyində deyil. Bir qarnı ac, bir qarnı tox fərqi yoxdu. Bərkə düşəndə bu yolla da çörək qazanmaq olar. Amma mən sənətimi itirirəm. Ömrüm boyu əmələ ərsəyə çatdırdığım işim gözüm görə-görə puç olur.

Heç vaxt ailəsi və övladı olmayan tənha bir qadının ən böyük sevgisi, ailəsi, bəlkə də övladı olan işinin məhv olması müdiri daxilən sındırırdı. Elə bir çətin və çarəsiz vəziyyətdə idi ki, işilə məşğul olmaq üçün evində olan dibçəkdəki gülü satmağa məcbur olmuşdu.

Bu basabasda əlində bənövşə dibçəyi üst pilləkəndə dayanan laboratoriya müdirimizi gözüm aldı. Dibçəyi əlində satmaq üçün tutduğuna söz yox idi. Yan-yörəsində gülə baxıb heyranlığını bildirən, qiymət soruşub ötən bu isə inadla gözünü dibçəyə dikib eyni cavabı verir. Oxlova dönüb kirpiyini belə qaldırmır.

Ali təhsil almış bir qadının, laboratoriya müdiri olan bir xanımın boynunu bükərək, qüruru sınmış bir vəziyyətdə dibçəkdəki gülü satmağa məcbur olması müharibənin, müharibənin gətirdiyi yaşayışın, dövrün necə acınacaqlı olduğunu göstərir. Belə çətin bir zamanda və çətin vəziyyətdə yaşayan qadınlar bostanda güclə işləyirlər ki, ailələrinə köməkliyi olsun. Laboratoriya işçisi günün sonunda günəşin istisindən yananda deyir ki,

"Qatıq olsaydı bir az sürtərdim, heç olmasa bir az odunu alardı. Hesabdarımız deyir ki, qatıq olsaydı elə yeyərdik, daha bura niyə gəlirdik?"

Elə bu situasiya vəziyyətin necə dəhşətli olduğunu göstərir. Bu qədər işlədikdən sonra belə yemək bişirmək və digər başqa öhdəliyi olan laboratoriya işçisi olan qadın gecəni də ağrılardan rahat yata bilməyərək yenidən işə gəlir və onların iki günlük əziyyətləri hədər gedir və üstəlik də təhqir olunurlar. Qadın olaraq qürurları sınır. Bir qadın üçün şərəfi, əxlaqı, qadınlıq heysiyyatı böyük əhəmiyyət kəsb etdiyi halda qadınların əxlaqi hisslərinə toxunulur və hətta onların əxlaqı əhəmiyyətsiz sayılır.

Laboratoriya müdirimiz həmişə olduğu kimi vəziyyətdən elmi nəticə çıxarır. Neynək qızlar! İşə zəhmətə hörmət olmayan bir ölkədə bu təbii haldı. Bizi alçaltmaqla əmək haqqından canını qurtarmaq istəyir.

"- Yəni deyildi ki, qartımış qarılarsınız. O bazarda sizə tələbat yoxdu, azıb bura gəlmisiniz...

- Allah vurmuşdu. Öz arvadları hərəmxanadan qaçana oxşayırlar..."

Burda ehtiyac üzündən işləməyə gəlmiş daha bir qadının da düşüncələri və qadın həssaslığı əhəmiyyətsiz sayılır. O, ehtiyac üzündən işləməyə gəlsə də gecələr burda sadəcə kişilərin qalmasından narahatlığını ifadə edir, amma buna əhəmiyyət belə verilmir. İstəsən işlə, istəməsən yox deyilir.

"Qadının əzilib-büzülmədən, bir kərəmə iti baltayla ağac şüyü kəsirmiş kimi kişinin sözünü kəsdi. - bircə mənim yolumu kəsən odur ki, gecə burda arvad xeylağı qalmır.

- Daa özün bil".

Qadınlar xarakter olaraq nə qədər utancaq və sakit olsalar belə əxlaqı bir məsələdə sərt reaksiya verə bilərlər. Elə qara paltarlı qadın da sərt reaksiya vermişdi. O işdən qorxmayan, lazım gəlsə neçə belə yer əkərəm deyəcək qədər cəsur biridi. Amma qadın heysiyyatı və əxlaqı onun qarşısını kəsir. Müharibənin və çətin yaşayışın dəhşətləri, keçid dövrünün çətinlikləri, qadın xarakteri, onların zərif olsalar da amma güclü bir varlıq olmaları qısa bir nəsr əsərində qadınların hər situasiyasında bəlli olur. Əslində, zərif və həssas adlandırılan qadınların çox güclü iradəyə, mərhəmətli ürəyə sahib olduqlarını görürük. Onlara verilən az məbləğdə pulu belə hesabdarın ərinin dərman pulları üçün verirlər. Çünki maaşlar vaxtında verilmirdi. Əsərdə biz qadın gücünün, qadın dostluğunun, qadın ürəyinin, mərhəmətinin, qadın xarakterinin, əxlaqının və qadınların çətin həyat şəraitinə qarşı mətanətlə verdikləri mübarizənin şahidi oluruq. Sara Oğuz nəsrinin digər bir nümunəsi olan "Beton Evdən Yazılar" povesti də maraqlı süjet və obrazlar qalereyasına malikdir. Ümumən əsərdə sosrealizm dövrü kinayə edilir. Bütün həyatlarını dar çərçivədə, küt mədəniyyətin təbliğinə həsr edənlərlə buna qarşı çıxanların və ya çıxmaq istəyənlərin aqibəti göstərilir. Əsər küt mədəniyyət təbliğatçısı Xalid adlı rəssamdan və onun ətrafında cərəyan edən hadisələrdən bəhs edir. Xalidi anası tək böyütmüşdü. Atası yox idi. Tək sərvəti oğlu olan ananın çətin həyat mübarizəsi vardır. Hər zaman tək qadın olaraq qorxu içində yaşayırdı. Xalid anasına əjdaha şəkli çəkəndə də deyirdi.

"Anam gecələr qapıya baxıb eymәndiyindən bir əjdaha şəkli çəkib vermişdim ki, qapının dalından assın. ...Kağızdan kəsdiyimiz əjdahanı anama verəndə o, dizinə döyüb ağlamışdı ki, əsə-əsə yaşadığını uşaq da duyur".

Müharibə və qırğınlar yenə bir ailəni başsız və bir qadını çətin vəziyyətdə qoymuşdu. Xalidin anası tək qadın olaraq qorxaraq yaşayırdı. Amma övladını tək böyütməyi bacarmışdı. Bir qadın və ana olaraq oğlu əsgərlikdə olanda heç bir imkan olmasa da çətinliklə də olsa imkan tapıb onun yanına getmişdi. Xalidin anası da digər nəsr əsərlərinin obrazları olan qadınların bəziləri kimi övladını tək böyütmüşdü. Bu həyatla və çətinliklərilə tək mübarizə aparırdı. Xalid isə əsgərlikdən sonra sənəti üzrə oxuyur və dar mühitə, çərçivələr mühitinə düşür. Bütün əsərlərini çərçivələr sisteminə salan rəssamın eyni zamanda həyatı və arzuları da çərçivələnir. Uşaqlığında istedadlı olan bu rəssam zaman-zaman çərçivələr sisteminə düşərək azadlığını və azad işləmə qabiliyyətini itirir. Əslində, onun çərçivələr sisteminə girməsinə mühitin və dövrün təsiri güclü olur. Azad işlərin və azad düşüncələrlə çəkilmiş rəsmlərin kimsəyə lazım olmadığını anlayanda Alay komandirinin dediyi çərçivələr sisteminə düşür. Alay komandirin də dediyi kimi çətini çərçivələr sisteminə düşməkdir. Hər zaman azad işləməyə çalışsa da və buna ümid etsə də olduğu mühitdən çıxa bilmir və zamanla azad işləyənlərin aqibətini gördükcə seçiminin doğru olduğuna inanır. Rəssam və onun birgə işlədiyi bütün rəssamlar çərçivələr sisteminə tabedir. Çempion isə onlardan fərqli olaraq azad rəssamdır və bu azad rəssam gənc sənətşünas xanımın diqqətini cəlb edir. Bu xanım gənclik həvəsi və sənət eşqilə, yeni düşdüyü dar mühitdən xəbəri olmadan çempionun əsərlərinin sərgisi uğrunda mübarizə aparır. Xalid rəssamın ona xəbərdarlıq etməsinə baxmayaraq mübarizə aparmağa davam edir və kimsədən qorxmadığını deyir.

"Adamı dəhşət bürüyür dalını düşünəndə. Deyirəm, atan yaxşı, anan yaxşı, heç bilirsən ki ha, bu əsərlərin "ağıllıları" var? Pullarıyla kimi desən basdırarlar... "Mən heç nədən qorxmuram"- dedi, - çox nahaq yerə".

Hələ düşdüyü çərçivələr mühitinin kölələrilə mübarizənin çətinliyini və bəlkə də mümkünsüzlüyünü anlamayaraq bu mühitə qarşı azad rəssam üçün mübarizə aparır. Hansı dar mühit ki, burda ancaq qaydalar və pul vacib rol oynayır. Qaydalara uymayanlar isə məhv olmağa və unudulmağa məhkum buraxılırlar. Gənc sənətşünasın diqqətini çempionun əsərləri ilə yanaşı görünüşü və xarakteri, gənc bir xanıma olan diqqətsizliyi cəlb edir, amma çempiondan fərqli olaraq Xalid bu gənc sənətşünasa çox diqqət edir. Həyat yoldaşı üçün bir dəfə də olsun gül aparmayan, həyat yoldaşının qiymətini bilməyən rəssam sənətşünas xanıma hədiyyə etmək üçün saatlarla və günlərlə onun portreti üzərində işləyir. Bu əsərdə də yenə həyat yoldaşı sevgisindən və hörmətindən məhrum olmuş qadın obrazı vardır. Xalidin həyat yoldaşını təsvir etməsi və onun haqqında danışığından da onun həyat yoldaşına verdiyi qiymət bəlli olur.

"Ayaqlarının hərəsi bir kötük, üstündə damarları zol-zol durur. Vaxtlı-vaxtında zəli qoymasa ayaqlarını yerə basammaz...Yatacağımı da emalatxanaya köçürmüşəm ki, gözüm görüb könlüm bulanmasın".

Xalid həyat yoldaşına lazımi sevgi və qayğı göstərmir. Hansı həyat yoldaşı ki, illərdir onun ailəsində ona və qohumlarına qulluq edir. Bu xanım həm ailənin başında durur və eyni zamanda ailəsi üçün çalışır. Onun bir xanım olaraq ailə ağsaqqalı olması, qohumlarla doğru əlaqə yarada bilməsi, qaynanasıyla yola getmək üçün dil tapması əsl qadın xarakterinin olduğunu göstərir. Xalidin həyat yoldaşından xoşu gəlməsə də vurğulayır ki: "

"Yenə kötüyü bizim evdən əksik olmasın. Nəslimizi yola verən odur. Bircə gün olmasa qırılıb-batarıq Rəhmətlik anamın da çəmini tapmışdı. Gəlin qaynana bir dəfə onların səs-sovunu eşitmədim".

Bu sözlərdən də aydın olur ki, rəssamın həyat yoldaşı mərhəmətli və sevgi dolu qadındır və eyni zamanda əsl bir ailə qadını olmağı bacarmışdı. Bir qadın olaraq övladını tək böyüdən, onu



hər şeyə qısqanan bir anayla mehriban yola gedirdilər. Bir-birilərinin qayğısına qalırdılar. Amma o da ərinin ona qarşı diqqətsizliyindən şikayət edirdi"

"Heç olmasa dükana-bazara sən get, mən öhdəsindən gələmmirəm, gücüm çatmır..., qollarım qırılır, növbələrdə itələşməkdən itə dönürəm".

Xalid isə əvəzində deyirdi:

"Darqursağın qızı, bəs rəssama gələndə bilmirdin ki, daş daşıyacaqsan? Bir qarnı ac, bir qarnı tox təşəxxüs sata-sata gəzəcəksən?!... Bilmirdin rəssam azad sənətkardır?".

Xalid həyat yoldaşını qiymətləndirəcək düşüncəyə sahib deyildi. Həmçinin heç də azad sənətkar deyildi. Çərçivələr sisteminin kölələrindən bir də o idi. Elə buna görə də sənətşünasın portretini çərçivələr sistemi olmadan çəkə bilmir və çəkdiyi rəsm də yaxşı alınmır. Çünki o mühitində azad işləmə və düşünmə qabiliyyətini itirmişdi. Rəsmi də sənətşünasın xoşuna gəlmir.

O isə gözünün ucuyla portretə baxan kimi, "Sizinki şəkil çəkmək deyil, bitlənirsiniz", - dedi.

Təcrübəli və peşəkar rəsmlərdən anlayan sənətşünas elə çempion üçün buna görə mübarizə aparırdı. Amma o düşdüyü mühitdə mübarizə aparmaq çətin idi və məğlub olur. Əslində, dar mühitin kölələrini qorxudan gənc sənətşünas kimi mübariz və azadlıq tərəfdarları olanlar idi. Onu isə məhv etməyə çalışırlar. Çərçivələr mühitinin rəssamlarının əsərləri və özləri də bir gün unudulmağa məhkumdurlar. Çünki əsərləri saxlanılmır, əsərlərinə bağlılıqları yoxdur. Xalid də ən sonda əvvəllər nə zamansa azad işləyəcəyinə ümid edirdisə, bunu istəyirdisə artıq o bu mühitə uyğunlaşdığı üçün şükür edirdi. Qeyd etdiyimiz kimi bu əsərdə sosrealizm dövrü kinayə edilir. Əsərdə çətinliklərlə mübarizə aparmağa çalışan fərqli qadın obrazları da vardır və bütün bunlar maraqlı bir süjetlə təqdim olunmuşdu.